UOT: 94(479.24)
Raidə ƏMİRBƏYOVA
Azərbaycan Universiteti, dissertant
r.amirbayova@gmail.com
https://doi.org/10.61226/12.3.4.2023.2

1991-2015-Cİ İLLƏR ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT UŞAQ MÜƏSSİSƏLƏRİNİN İNKİŞAF TARİXİ

Xülasə: Təqdim edilən məqalədə Azərbaycan Respublikasında müstəqillik illərində uşaq hüquqlarının müdafiəsi sahəsində həyata keçirilmiş tədbirlər, qəbul olunmuş normativ-hüquqi sənədlər və dövlət uşaq müəssisələrinin inkişafına dair həyata keçirilmiş təşəbbüslər və layihələr araşdırılmışdır. 1991-2015-ci illər ərzində uşaq müəssisələrinin inkişaf etdirilməsi üçün həm dövlət, həm qeyri-hökümət təşkilatlarının fəaliyyətinin koordinasiya məsələləri, Heydər Əliyev Fondu tərəfindən bu sahədə həyata keçirilmiş tədbirlər tədqiq edilmişdir. Dövlət uşaq müəssisələrində tərbiyə alan uşaqların sayına dair statistik göstəricilər illər üzrə təhlil olunmuşdur.
Açar sözlər: uşaq evi, internat məktəbləri, uşaq siyasəti üzrə dövlət proqramları, sosial müdafiə.

Raida AMIRBAYOVA

THE HISTORY OF DEVELOPMENT OF STATE CHILD INSTITUTIONS IN THE PERIOD OF 1991-2015 YEARS

Abstract : The activities implemented in the field of protection of children's rights, the adoption of normative-legal documents, and most importantly, the initiatives and projects being realized for development of state children's institutions during the years of independence in the Republic of Azerbaijan are examined within this article.

The article investigates the cooperation and coordination issues of both state and non-governmental organizations regarding the development of state child institutions in the period of 1991-2015, and in this point the activities and the role and significant projects of Heydar Aliyev Foundation are being analyzed in this article.

In the framework of this research the author analyzing the dynamics of statistical indicators of children living in child institutions during the investigated years.
Key words: children's home, boarding schools, state programs for children's policy, social protection.

Раида АМИРБАЙОВА

ИСТОРИЯ РАЗВИТИЯ ДЕТСКИХ УЧРЕЖДЕНИЙ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ В 1991-2015-х ГОДАХ

Абстракт: В представленной статье исследована деятельность в области защиты прав детей, нормативно-правовые документы и реализованные инициативы и проекты по развитию государственных детских учреждений в годы независимости в Азербайджанской Республике. Проанализированы вопросы координации деятельности как государственных, так и неправительственных организаций в области развития детских учреждений в 1991-2015-хх годах, в этой связи исследована и деятельность Фонда Гейдара Алиева Проанализированы статистическая динамика показателей количества детей, обучающихся в государственных детских учреждениях в исследуемые годы.
Ключевые слова: детский дом, школы-интернаты, государственные программы по детской политики, социальная защита.

Giriş

Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün xüsusi müəssisələrin formalaşması uzun tarixə malik olmuşdur, müharibə və digər səbəblərdən valideynlərini itirmiş və valideyn qayğısından məhrum uşaqların yerləşdirilməsi məqsədi daşımışdır. Bu tipdən olan ilk müəssisənin yaradılma tarixi ilə bağlı müxtəlif mülahizələr mövcuddur. R.Karter "Mərkəzi və Şərqi Avropada, keçmiş Sovet İttifaqında uşaq qayğı sistemi" adlı tədqiqat əsərində ilk uşaq müəssisəsinin IV-cü əsrdə Konstantinopolda yaradılmasını, orta əsrlərdə bu tip müəssisələrin inkişaf etdirildiyini qeyd etmişdir. Çex tədqiqatçıları Y.Lanqmeyer və Z.Mateyçeki də ilk uşaq müəssisəsinin IV-cü əsrdə yaradıldığını bidirmişlər. Rusiya pedaqoji ensiklopediyasında isə ilk tərbiyə evinin 787-ci ildə Milanda təsis edildiyi əks olunmuşdur [21].

Azərbaycanda valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların saxlanılması, təlim-tərbiyəsi məqsədilə uşaq müəssisələrinin və internat məktəbləri şəbəkəsinin inkişafı sovet dövrünə təsadüf edir. Azərbaycan SSR Xalq Maarifi Komissarlığı Kollegiyasının 6 yanvar 1926-cı il tarixli qərarı ilə "Kəndli-gənclər məktəbləri haqqında Əsasnamə"nin təsdiq edilməsi bu sahədə əhəmiyyətli rol oynadı. İkinci dünya müharibəsi dövründə keçmiş Sovet respublikalarında, o cümlədən Azərbaycanda valideyn himayəsindən məhrum olmuş və sosial cəhətdən müdafiəyə ehtiyacı olan uşaqların sayının artması internat tipli müəssisələrin kütləvi şəkildə yaradılması ilə nəticələnmişdir [1].

XX əsrin 90-cı illərinin əvvəllərində ölkədə genişlənmiş böhran sosial-iqtisadi vəziyyətinin pisləşməsinə, əhalinin həyat səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdur. Yalnız 1990-cı illərin ortalarından başlayaraq ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında aparılan sosial və iqtisadi islahatlar nəticəsində müstəqil Azərbaycanın inkişafı üçün möhkəm təməl yaratmış, genişmiqyaslı sosial layihələrin həyata keçirilməsinə imkan vermişdir. Uşaq hüquqlarının müdafiəsi və xüsusilə həssas qrupa daxil olan uşaqların sosial müdafiəsi məsələləri məhz 90-cı illərin ortalarından başlayaraq aktuallaşmağa başladı: güclü milli qanunvericilik bazası yaradılmış, struktur islahatları aparılmış, bu sahədə beynəlxalq təşkilat və xarici ölkələrlə əməkdaşlıq üçün addımlar atılmışdır.

Əksəriyyəti Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etməyə başlamasından sonra inşa edilmiş və fəaliyyətə başlamış dövlət uşaq müəssisələrinin (körpələr evləri, uşaq evləri və internat məktəbləri) yenidən fəaliyyətə başladı, onların şəraitinin yaxşılaşdırılması istiqamətində vacib addımlar atıldı, həmin müəssisələrdə çalışan mütəxəssislərin peşə biliklərinin artırılması, işinin təkmilləşdirilməsi istiqamətində tədbirlər həyata keçirildi. 2000-ci illərin əvvələrində uşaq müəssisələrinin inkişafına dair həm dövlət, həm qeyri-hökümət təşkilatlarının işlərinin koordinasiya edilməsi gücləndi. Xüsusən Heydər Əliyev Fondu tərəfindən bu sahədə bir-birinin ardınca müxtəlif layihələr həyata keçirildi, dövlət uşaq müəssisələrinin işinin yaxşılaşdırılması üçün təsirli tədbirlər görülmüşdür.

Azərbaycan Respublikasında uşaq hüquqlarının müdafiəsi sahəsində görülən işlər.

Müstəqilliyin ilk illərində planlı iqtisadi sistemdən imtina edilmiş, bazar prinsiplərinə keçid əsas hədəf kimi dövlət qarşısında qoyulmuşdur ki, bu da dövlətin sosial məsələlərə bir az zəif yanaşmasına səbəb olmuşdur.

Ermənistanın Azərbaycana təcavüzü nəticəsində uşaqların valideynlərini itirməsi, qaçqın və məcburi köçkün ailələrinin maddi vəziyyətinin aşağı olması və digər sosial amillər dövlət uşaq müəssisələrində uşaqların sayının artmasının səbəblərindəndir.

Uşaq siyasətinin reallaşmasında güclü qanunvericilik bazasının yaradılması çox vacib idi. Keçən dövr ərzində davamlı olaraq milli qanunvericilik və normativ-hüquqi aktlar təkmilləşdirilmiş, uşaq hüquqlarının müdafiəsi, normal formalaşması və uşaqların sağlam böyüməsinə yönəlmiş bir çox sənəd qəbul edilmişdir.

1992-ci ildə Azərbaycan BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına qoşulmuşdur. Bu beynəlxalq sənəd ölkəmizin qoşulduğu ilk beynəlxalq sənədlərdən biri olmuşdur. Araşdırılan dövr ərzində Azərbaycan, eyni zamanda, "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında", "Uşaqların kənd təsərrüfatında işə buraxılmasının minimum

yaşı haqqında", "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" və digər Konvensiyalara da qoşulmuşdur. Dövlət tərəfindən ratifikasiya edilmiş konvensiyalara əsasən daxili qanunvericilikdə də mühüm islahatlar aparılmışdır. Bu milli qanunvericilikdə uşaq hüquqlarının müdafiəsi təkmilləşdirmə işinin aparılmasına, yeni mexanizmlərin yaradılmasına və uşaqlara qarşı zorakılıqla mübarizəyə ünvanlanan ümumi prinsiplərin formalaşdırılmasına təkan vermişdir.

Ölkəmiz müstəqillik qazandıqdan sonra valideyn himayəsindən məhrum olan uşaqlarla bağlı qəbul edilən ilk qərarlardan biri internat məktəblərdə tərbiyə olunan uşaqlar üçün geyim ləvazimatları və yumşaq inventarla təmin olunması ilə bağlı olmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 17 yanvar tarixli 15 nömrəli **"**Bütün tipdən olan internat məktəblərdə, əqli və ya fiziki cəhətdən qüsurlu uşaqlar üçün internat məktəblərdə, uşaq evlərində, yetim və valideyn himayəsindən məhrum uşaqlar üçün internat məktəblərdə tərbiyə olunan uşaq və yeniyetmələrin geyim, ayaqqabı və yumşaq inventarlarla təmin olunması norması haqqında" qərara əsasən internat məktəblərində təlim-tərbiyə alan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların paltar və ayaqqabı [11, s.11,12].

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı ilə 2009-cu ildə Azərbaycan Respublikasının Konstitusiyasının 17-ci maddəsi "Ailə, uşaqlar və dövlət" adlandırılmışdır, adıçəkilən maddəyə yeni məzmunda hissələr əlavə edilərək, III bəndinə "Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər" hissəsi əlavə olunmuşdur [2, s.2].

Uşaq hüquqlarının müdafiəsini təmin etmək məqsədilə 19 may 1998-ci ildə "Uşaq hüquqları" haqqında qanun qəbul edilmişdir. Qəbul olunmuş bu mühüm hüquqi sənəd uşaqların hüquqlarını və azadlıqlarını təmini sahəsində vacib normativ aktlardan biri olmuşdur [13].

22 iyun 1999-cu ildə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasinin qanunu qəbul olunmuş və bu qanun valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların hüquqlarının müdafiəsi sahəsində ən prioritet normativ-hüquqi aktlardan biri olmuşdur [3].

2003 ilin 31 may tarixində "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu qüvvəyə minir. Əsasnamə uşaqların hüquqlarının müdafiəsi üzrə komissiyaların təşkilinin və fəaliyyətinin hüquqi əsaslarını müəyyən edir. Komissiya yetkinlik yaşına çatmayanlara tərbiyəvi təsir göstərməkdən, onların hüquqlarını və qanuni mənafelərini qorumaqdan, davranışına nəzarət etməkdən, qanunazidd əməllərin qarşısını almaqdan, göstərilən məsələlərdə dövlət və yerli özünüidarəetmə orqanlarının, mülkiyyət formasından asılı olmayaraq müəssisələrin, idarələrin və təşkilatların fəaliyyətini əlaqələndirmək məqsədi ilə yaradılmışdır [19].

2005-ci ildə "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və 2004-cü ildə "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" Konvensiyaya qoşulmaq barəsində" Azərbaycan Respublikasının Qanunları imzalanmışdır.

2006-cı ilin mart ayında Prezident İlham Əliyev uşaqların uşaq evlərindən ailələrə verilməsi və alternativ qayğı haqqında dövlət proqramını təsdiq etmişdir. 2006-2015-ci illəri əhatə edən bu proqram çərçivəsində yaxın 3-5 il ərzində ölkədə 45 uşaq müəssisəsinin transformasiyası planlaşdırılmışdır [11].

2012-ci ildən Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na əsasən, dövlət müəssisələrində uşaqların qidalanma, nəzarət, təhlükəsizlik, zorakılığa məruz qalma və digər məsələlərlə bağlı monitorinqlər aparılmışdır [4].

2004-2015-ci illər çərçivəsində valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün dövlət uşaq müəssisələrin inkişafı və Heydər Əliyev fondunun rolu

1991-2015-ci illərdə ölkəmizdə valideyn himayəsindən məhrum olmuş uşaqların yaşadığı dövlət uşaq müəssisələrinin fəaliyyət istiqamətinə görə aşağıdakı kimi təsnif edilə bilər:

1.Körpələr evləri;

2.Uşaq evləri;

3.Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbləri;

4.Sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəsisisələri;

4.Ümumtəhsil internat məktəbləri, onlardan valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olan uşaqlar üçün internat məktəbləri. [17]

1991-2015-ci illər ərzində internat məktəblərində təlim-tərbiyə almış valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların ümumi sayı qeyri-sabit şəkildə dəyişmişdir. Belə ki, Cədvəl 1-dən göründüyü kimi körpələr evlərində 1991-ci ildə valideyni itirmiş və valieyn himayəsindən məhrum olan uşaqların sayı 150, 2011-ci ildə rəqəm 3 dəfə azalaraq 43-ə çatmışdır. Ümumi təhsil internat məktəblərində 1991-ci ildə uşaqların sayı 19400, 2011-ci ildə isə 6395 nəfər olmuşdur. Valideynini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqlar üçün internat məktəblərində tərbiyə alan uşaqların sayı 1991-ci ildə 505, 2011-ci ildə isə 398 nəfər azalmışdır.

Cədvəl 1.

Uşaqlar üçün internat müəssisələri. [5]

	1991	1996	2001	2006	2011
Körpələr evlərinin sayı	4	4	4	4	4
Onlarda:					
Uşaqların sayı	241	166	197	156	143
Valideynini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların sayı	150	96	107	59	43
Uşaq evlərinin sayı,	5	4	6	6	6
Onlarda: uşaqların sayı	397	395	684	734	513
Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəblərinin sayı	16	13	13	12	11
Onlarda olan uşaqların sayı	2811	1607	2679	2915	2537
Ümumi təhsil internat məktəbləri,	50	38	38	39	22
Onlarda olan uşaqların sayı,	19400	15239	17638	18664	6395
Onlardan,valideyni itirmiş və valideyn himayəsindən məhrum olan uşaqlar üçün internat məktəblərinin sayı	2	2	2	2	2
Onlarda uşaqların sayı	505	548	554	480	398

Qeyd edilməlidir ki, bu internat məktəblərinin əksəriyyəti XX əsrin 60-cı illərindən geniş fəaliyyətə başlamışdır. Sovet hakimiyyətinin süqutundan sonra Azərbaycanda 63 dövlət uşaq

müəssisəsində (uşaqların sayı 20 mindən artıq təşkil edirdi), təlim, qulluq, ödənişsiz təhsil və səhiyyədən istifadə imkanları kimi bir çox sosial zəmanətlərin əhəmiyyətli dərəcədə azalmasına səbəb olmuşdur. Bunların hamısı əhalinin maddi durumuna mənfi təsir göstərmiş və bir çox uşaqlı ailələrin vəziyyətinin yoxsulluq həddinə çatması ilə nəticələnmişdir. O zaman ölkədə yaranmış vəziyyət aztəminatlı ailələrin uşaqlarının sosial xidmətlərdən istifadə imkanlarını azaltmışdır. [9]

Araşdırılan dövr ərzində bir sıra dövlət uşaq müəssisələrində əsaslı təmir və yenidənqurma işləri görülmüş, fəaliyyətlərin təkmilləşdirilməsinə dair təşəbbüslər reallaşdırılmışdır. Həm dövlət, həm vətandaş cəmiyyətinin birgə fəaliyyətlərinin yaradılması və inkişafı bu dövrün əsas xüsusiyyətlərindən biridir. Bu səpkidə H.Əliyev Fondunun fəaliyyəti vurğulanmalıdır. Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün dövlət uşaq müəssisələrinin inkişafı sahəsində H.Əliyev Fondu tərəfindən bu dövr ərzində əhəmiyyətli işlər görülmüşdür.

2004-cü ilin mayın 10-dan Heydər Əliyev Fondu fəaliyyətə başlayır. İctimai əsaslarla fəaliyyət göstərən Heydər Əliyev Fondu ölkədə anoloqu olmayan bir qurum olaraq, ardıcıl və səmərəli fəaliyyəti nəticəsində qısa müddət ərzində həm respublikada, həm də xaricdə böyük hörmət qazanmışdır.

2005-ci ilin əvvəlində Bakıda və əksər rayonlardakı uşaq evləri və internat məktəblərinə Heydər Əliyev Fondu tərəfindən edilən səfərlər nəticəsində "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı"nın hazırlanmasına təkan vermişdir. Proqramın ilkin mərhələsində aparılan monitorinqdən sonra uşaq müəssisələrində təhsil və sosial sahədə problemlərin həllinə yönələn bir neçə istiqamət-texniki dəstək, təhsil, səhiyyə və ictimai fəallıq prioritet kimi müəyyənləşdirilmişdir. Fond belə müəssisələrin böyük əksəriyyətinin məhz təmirə, yenidənqurmaya və texniki təchizata daha çox ehtiyacı olduğunu nəzərə aldığından, ilk növbədə, texniki dəstək istiqaməti üzrə işlərə başlamışdır.

Bu kateqoriyadan olan 50-dək uşaq müəssisəsində yenidənqurma və tikinti-təmir işləri aparılmışdır. Bu zaman onların zəruri avadanlıqla təmin edilməsi, yeni ədəbiyyatla zəngin kitabxanaların yaradılması, informasiya texnologiyalarının tətbiqi, sinif otaqlarının interaktiv təhsil üçün uyğunlaşdırılması da diqqət mərkəzində olmuşdur [6, s.3].

Uşaq evləri və internat məktəblərində mövcud problemlərin həllinə yönələn təşəbbüslər Heydər Əliyev Fondunun başlıca fəaliyyət istiqamətlərindən birinə çevrilmişdir. 2005-ci ildən başlayaraq Proqramın ilkin mərhələsində aparılan monitorinqdən sonra uşaq müəssisələrində təhsil və sosial sahədə problemlərin həllinə yönələn dörd əsas istiqamət – texniki dəstək, təhsil, səhiyyə və ictimai fəallıq prioritet kimi müəyyənləşdirilmişdir. Fond belə müəssisələrin böyük əksəriyyətinin məhz təmirə, yenidənqurmaya və texniki təchizata daha çox ehtiyacı olduğunu nəzərə aldığından, ilk növbədə, texniki dəstək istiqaməti üzrə işlərə başlanmışdır. [10]

2005-2007 illər çərçivəsində 23 uşaq müəssisəsində yenidənqurma və tikinti-təmir işləri həyata keçirilmişdir. Bu zaman onların zəruri avadanlıqla təmin edilməsi, yeni ədəbiyyatla zəngin kitabxanaların yaradılması, informasiya texnologiyalarının tətbiqi, sinif otaqlarının interaktiv təhsil üçün uyğunlaşdırılması da diqqət mərkəzində olmuşdur. Layihənin həyata keçirilməsi gedişində Bakı şəhəri 1 nömrəli uşaq evi, Nərimanov rayonundakı psixo-nevroloji uşaq evi, Şamaxı internat məktəbi, Nizami rayonundakı 1 nömrəli uşaq evi, əqli və fiziki cəhətdən qüsurlu uşaqlar üçün 3 nömrəli xüsusi təhsil məktəbi, Əzizbəyov rayonundakı 2 nömrəli kimsəsiz və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün internat məktəbi, Şüvəlan qəsəbəsindəki yetim və valideyn himayəsindən məhrum uşaqlar üçün respublika yardımçı internat məktəbi, beyin iflici və poliomielit keçirmiş uşaqlar üçün 16 nömrəli internat məktəbi, Türkan qəsəbəsindəki nitqi qüsurlu uşaqlar üçün respublika xüsusi internat məktəbi və bir sıra digər uşaq müəssisələri yenidən qurulmuşdur. Onlarda sanitar-gigiyenik normalara cavab verən müasir tipli yeməkxanalar, yataq otaqları, həkim və psixoloq otaqları, idman meydançaları və salonları yaradılmışdır. [18]

Ölkədə alternativ qayğı sisteminin yaradılmasına baxmayaraq bu sistem araşdırılan dövr çərçivəsində ölkənin bütün rayon və şəhərlərini əhatə edə bilmir. Bütün bunları nəzərə alaraq internat müəssisələrində yaşayan və tərbiyə alan uşaqların normal şəraitli müəssisələrdə yaşamasını təmin etmək məqsədilə, Heydər Əliyev Fondunun dəstəyi ilə işçi qrupu yaradılmış və bu işçi qrup respublikada fəaliyyət göstərən uşaq evləri və internat məktəblərində mövcud problemlərin

araşdırılması məqsədilə monitorinq aparmışdır. Bu müəssisələrdə uşaqların sayı, aylıq və illik qida, geyim, texniki vəsait normativləri, ümumi şərait (təhsil, səhiyyə, yaşayış, istirahət) kimi göstəricilər müəyyən edilmişdir. [14]

1962-ci ildən fəaliyyətə başlamış Bakı şəhərində yerləşən 8 nömrəli sanatoriya tipli internat məktəbi Heydər Əliyev Fondunun "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində əsaslı təmir edilən müəssisələrdəndir. 2012-ci ildə Heydər Əliyev Fondu tərəfindən məktəb əsaslı təmir edilmişdir. Ümumi sahəsi dörd hektar olan 290 şagird yerlik sanatoriya tipli internat məktəbi iki hissədən – tədris korpusu və yataqxanadan ibarət olmuşdur. Həyata keçirilmiş əsaslı təmir işlərinin nəticəsi olaraq ikimərtəbəli tədris korpusunda xüsusi avadanlıqla təchiz olunmuş linqafon, fizika, kimya, hərbi vətənpərvərlik, əmək, kompüter otaqları və müxtəlif fənn kabinetləri fəaliyyət göstərmişdir. Burada həmçinin idman zalı, kitabxana, həkim otağı, 160 nəfərlik akt zalı mövcud olmuşdur. Məktəbin həyətində 200 tamaşaçı yeri olan stadion inşa edilmişdir. Stadionda idmanın müxtəlif növləri - basketbol, futbol, voleybol, tennis ilə məşğul olmaq imkanı yaradılmışdır. Məktəb ayrıca su anbarı, təhlükəsizlik kameraları ilə təmin edilmişdir. Üçmərtəbəli yataqxanada geniş və işıqlı yeməkxana, 10 yataq, 18 istirahət, kompüter otaqları, həmçinin həkim kabineti açılmış, valideynlərin istirahəti və gecələməsi üçün şərait yaradılmışdır. [8]

10 saylı sanatoriya tipli internat məktəbi 1961-ci ildən fəaliyyət göstərir. Binada 2005-ci ildə əsaslı təmir işləri aparılmışdır. Sanatoriya tipli internat məktəbi tədris, yataqxana və istirahət-dərs hazırlığı korpuslarından ibarət olmuşdur. XXI əsrin ilk onilliklərində internat məktəbin tədris korpusunda müasir avadanlıqla təchiz edilmiş fizika, kimya, biologiya laboratoriyaları, 2 informatika otağı, 2 texnologiya otağı və sinif otaqları fəaliyyət göstərmişdir. Burada 320 nəfərlik akt zalı, idman zalı və 320 yerlik yeməkxana korpusu da müvafiq avadanlıqla təchiz olunmuşdur. İnternat məktəbində Azərbaycan və rus bölmələrində iki növbədə təhsil alınmaq mümkün olmuşdur. Onların təlim-tərbiyəsi ilə 100-ə yaxın pedaqoji heyət məşğul olmuşdur. [15]

11 nömrəli köməkçi internat məktəbi 1961-ci ildə fəaliyyətə başlamış və Rayon Təhsil Şöbəsinin tabeçiliyində fəaliyyət göstərmişdir. 1997-ci ildə Heydər Əliyevin bu təhsil ocağına gəlişi məktəbə xüsusi diqqətin artırımasına təkan vermişdir. Bundan başqa müəssisəyə ölkə Prezidenti İlham Əliyev və ölkənin birinci xanımı Mehriban Əliyeva başçəkmiş, məktəbdə yaradılan şəraitlə tanış olmuş, xüsusi qayğıya ehtiyac olan uşaqlarla görüşlər keçirilmiş, onlara diqqət və qayğının artırılması üçün tövsiyələr verilmişdir. [7, s.11] ("Azərbaycan müəllimi" qəzəti, № 43(8660), "11 nömrəli İnteqrasiya təlimli internat məktəbi", səhifə 11, 21 noyabr 2015-ci il).

2003-cü ildə internat məktəbinin nəzdində aztəminatlı ailələrin övladları üçün ümumtəhsil sinifləri açılmışdır. 2007-2008-ci tədris ilində Təhsil Nazirliyinin tabeçiliyinə keçən internat məktəbinin adı dəyişdirilərək 11 nömrəli Xüsusi internat məktəbi adlandırılmışdır. 2009-2010-cu tədris ilində aztəminatlı ailələrin uşaqlarının internat məktəbə düşmə riskini azaltmaq məqsədi ilə internat məktəbin tərkibində 3-6 yaşlı uşaqlar üçün Günərzi Qayğı Mərkəzi və USİ keçirmiş uşaqlar üçün Reablitasiya Mərkəzi yaradılmışdır. 2014-cü ildə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə internat məktəbinin adı dəyişdirilərək, 11 nömrəli İnteqrasiya təlimli internat məktəbi adlandırılmışdır. İnternat məktəbinin ərazisi 3 hektardan artıq olmaqla, 6 korpusdan ibarət olmuşdur. 2005-ci və 2015-ci illərdə Heydər Əliyev Fondu tərəfindən təmir edilmiş internat məktəbi yeni fənn kabinetləri (kimya,fizika, biologiya və s.) ilə və lazım olan bütün tədris vəsaitləri ilə təmin olunmuşdur. Burada müxtəlif dərnəklərin fəaliyyəti genişləndirilmiş, şagirdlərə taxta üzərində oyma, tikiş və toxuma ilə bərabər müxtəlif sənətlər (qabilen, izonit, keramika, dulusçuluq, xalçaçılıq və s.) öyrədilməsinə şərait yaradılmışdır. İnternat məktəbində şagirdlərin marağını nəzərə alaraq onlar üçün "Art" studiya yaradılmış və şagirdlərə sənət öyrətmək üçün sənətkarlar, ustalar dəvət edilmiş və onlar təmənnasız şagirdlərə bir çox sənətləri öyrətmişdir. Şagirdlərin rəsmə olan marağı inkişaf etdirilmiş, qrafika və animasiya studiyası yaradılmışdır. [20]

Beləliklə, araşdırılan dövr çərçivəsində bir çox uşaq müəssisəsində əsaslı təmir işləri aparılmış, həmin müəssisələr yeni avadanlıqla təchiz olunmuş, kommunal şərait yaxşılaşdırılmışdır. Müəssisələrdə kitabxanalar yaradılmış, müvafiq uşaqların cəmiyyətə inteqrasiyası həyata keçirilmiş, onların asudə vaxtları və istirahətləri üçün şərait yaradılmış və onların maksimum

səviyyədə bioloji ailələrinə qaytarılmasına dəstək göstərilmişdir. Belə müəssisələrdə yaşayan uşaqların sənət öyrənmələri üçün kompüter kursları və müxtəlif dərnəklər təşkil olunmuş, bundan əlavə uşaqlar inteqrasiya olunaraq icmadakı ümumi məktəblərə göndərilmişdir [16].

Nəticə

Dövlət uşaq müəssisələrinin inkişaf tarixi Azərbaycanın ən yeni tarixinin aktual məsələlərindən biridir və şübhəsiz ki, tarixçilər tərəfindən diqqətlə araşdırmalıdır.

Elmi məqalənin xronoloji çərçivəsi 1991-2015-ci illəri əhatə edir.

XX-ci əsrin 90-cı illərinin ortalarından başlayaraq dövlətimiz üçün uşaq və xüsusilə, valideyn himayəsindən məhrum olmuş uşaqların hüquqlarının müdafiəsi prioritet məsələsinə çevrilir.

Böyük hissəsi Sovet dövründə tikilmiş dövlət uşaq müəssisələrinin inkişaf tarixi məhz Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə bağlıdır. Qeyd olunan dövr ərzində qəbul olunmuş qanunvericilik bazası və uşaq hüquqlarının müdafiəsi sahəsində yaradılmış vahid dövlət idarəetmə orqanı, bu sahədə struktur islahatlar, qeyri-hökümət sektorunun cəlb edilməsi uşaq müəssisələrinin fəaliyyətlərinin təkmilləşdirilməsi, həmin müəssisələrdə çalışan mütəxəssislərin peşə biliklərinin artması ilə nəticələnmişdir.

Azərbaycan Respublikasında valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün dövlət uşaq müəssisələrinin inkişaf tarixində 2004-cü ildə yaradılmış Heydər Əliyev Fondunun rolu xüsusilə qeyd olunur.

Heydər Əliyev Fondu tərəfindən valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün dövlət uşaq müəssisələrinin inkişafı və fəaliyyətlərin təkmilləşdirilməsi sahəsində aparılan çoxşaxəli təşəbbüslər, bu sahədə dövlət və qeyri-hökümət təşkilatlarının effektiv əməkdaşlığı tətbiq edilən dövrün müsbət xüsusiyyətlərdən biridir.

Ədəbiyyat

1. Mərdanov, M. Azərbaycan təhsili: yaxın keçmişə, bu günə və gələcəyə bir baxış // 525-ci. – 2009, 26 iyun. – s.11-12.
2. Hüseynova, H. // "Azərbaycan" qəzeti. – 2009, 31 mart. – s. 3.
3. Süleymanova, E. Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq konvensiyaların milli qanunvericilikdə təsbiti: [1 cilddə] / Bakı: Rəsmi Nəşr, –2003.– s.23,24
4. Azərbaycan – Beynəlxalq təşkilatlar: "Azərbaycan - YUNİSEF münasibətləri". [Elektron resurs] / Müraciət edilib: 01.12.2022 Bakı, 2019.

Mənbə: https://lib.aliyevheritage.org/az/4308004.html

5. Azərbaycanda Uşaqlar Statistik məcmuə/2022. – Bakı: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi nəşri, – 2022. – s. 22.
6. Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum olan uşaqlara xüsusi diqqət göstərir // Azərbaycan qəzəti. – 2016, 30 dekabr. – s.3.
7. 11 nömrəli İnteqrasiya təlimli internat məktəbi // Azərbaycan müəllimi qəzeti. –

2015, 21 noyabr. – s.11.

8. Buzovna qəsəbəsində 8 nömrəli sanatoriya tipli internat məktəbi: [Elektron resurs] / Müraciət edilib: 01.12.2022
   Mənbə:https://heydaraliyevfoundation.org/az/content/view/72/723/Buzovnaq%C9%99s%C9%99b%C9%99sind%C9%99-8-n%C3%B6mr%C9%99li-sanatoriya-tipli-internat-m%C9%99kt%C9%99bi
9. Məmmədli, Q. Valideynlərini itirmiş uşaqlar təhsil müəssisəsini bitirənədək tam dövlət təminatına götürülürlər // Ekspress qəzeti. – 2015, 17 avqust. – s.10, 15.
10. Məmmədov, M. İnternat evləri yenidən qurulur// Ekspress qəzeti. – 2015, 1 dekabr, s.10.
11. Heydər Əliyev Fondu ölkəmizdə təhsilin, səhiyyənin və mədəniyyətin, idmanın inkişafına, insanların konkret qayğı və problemlərinin həllinə, Azərbaycanın beynəlxalq əlaqələrinin genişlənməsinə öz töhfəsini verir // Xalq qəzeti. – 2006, 26 avqust. – s. 2-3.
12. Bütün tipdən olan internat məktəblərdə, əqli və ya fiziki cəhətdən pozuntusu olan uşaqlar üçün internat məktəblərdə, uşaq evlərində, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqlar üçün internat məktəblərdə tərbiyə olunan uşaq və yeniyetmələrin geyim, ayaqqabı və

yumşaq inventarlarla təmin olunması norması haqqında AZƏRBAYCAN RESPUBLİKASI NAZiRLƏR KABƏNETİNİN QƏRARI https://www.e-qanun.az/framework/16160 Müraciət edilib: 12.10.2023
13. Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu [Elektron resurs] / Müraciət edilib: 12.04.2022 Mənbə: https://e-qanun.az/framework/3292
14. Heydər Əliyev Fondu Azərbaycanı gələcəyə aparan gözəl bir vasitədir, [Elektron resurs] / müraciət edilib: 02.02.2023 Mənbə: https://mehribanaliyeva.preslib.az/media-ae9a13f455.html
15. Mehriban Əliyeva Pirşağıdakı 10 saylı internat məktəbində. [Elektron resurs] / Müraciət edilib: 2.12.2022. Mənbə: https://oxu.az/politics/340411
16. Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum olan uşaqlara xüsusi diqqət göstərir. // Azərbaycan qəzəti.–2016, 30 dekabr, s.3.
17. Qanunvericilik Toplusu. – Bakı, c.38. –1999, 31 avqust. – s.1713
18. Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 1 №-li tam orta internat məktəb: [Elektron resurs]/ Müraciət edilib: 19.02.2021 Mənbə: http://sabunchu-ih.gov.az/az/page/201.html
19. Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU. [Elektron resurs]/ Müraciət edilib: 31.10.2021 Mənbə: https://e-qanun.az/framework/1034
20. 11 nömrəli İnteqrasiya təlimli internat məktəbi. [Elektron resurs]/ tərt.ed.; Bakı şəhər Sabunçu rayon İcra Hakimiyyəti. – Bakı, 2012 Mənbə: http://sabunchu-ih.gov.az/az/page/199.html
21. R. Carter. Family Matters . A study of institutional childcare in Central and Eastern Europe and Former Sovet Union. – London: 2015, s.11

Məqalənin redaksiyaya daxilolma tarixi: 26.07.2023

Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 30.07.2023

Məqalənin çapa qəbul olunma tarixi: 11.09.2023